# Paytaxt məktəblisi fəxri kürsüdə

## Nihad Tağızadə kikboksinq üzrə Avropa çempionu olub

Bakı məktəblisi Monteneqroda keçirilən kikboksinq üzrə Avropa çempionatında qalib gəlib. Belə ki, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki 49 nömrəli məktəb-liseyin XI sinif şagirdi Nihad Tağızadə 51 kiloqram çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək I yerə layiq görülüb. N.Tağızadə bu qələbəsinə görə diplom, qızıl medal və kuboka layiq görülüb.

Qeyd edək ki, bu, Bakı məktəblisinin ilk uğuru deyil. O, kikboksinq üzrə 2019-cu ildə Macarıstanda keçirilən Avropa çempionatında II, Rusiyada isə I yeri tutaraq dünya kubokunun sahibi olub.



Azərbaycan müəllimi.- 2021.- 3 dekabr.- S.16.